**MÜSTƏQİL AUDİTOR HESABATI**

"Azəravtoyol" ASC-nin rəhbərliyinə

Biz «Azəravtoyol» ASC–nin 31.12.2015-ci il tarixinə başa çatmış il üzrə balans hesabatından və bu tarixdə mənfəət və zərər, kapitalda dəyişikliklər və pul vəsaitlərinin hərəkəti barədə hesabatlarından, habelə əhəmiyyətli uçot siyasətinin və digər izahedici qeydlərin qısa xülasəsindən ibarət olan əlavə edilmiş maliyyə hesabatlarının auditini apardıq.

***Maliyyə Hesabatları üzrə rəhbərliyin məsuliyyəti***

«Azəravtoyol» ASC-nin rəhbərliyi bu maliyyə hesabatlarının mövcud qanunvericiliyə uyğun olaraq hazırlanması və düzgün təqdim edilməsi üzrə məsuliyyət daşıyır.Həmin məsuliyyətə firildaqçılıq və ya səhv nəticəsində yaranmasından asılı olmayaraq, əhəmiyyətli səhvlər olmayan maliyyə hesabatlarının hazırlanması və düzgün təqdim edilməsi üçün müvafiq daxili nəzarətin təşkili,tətbiqi və saxlanması; müvafiq uçot siyasətinin seçilməsi və tətbiqi; müəyyən şəraitə münasib olan uçot ehtimallarının müəyyən edilməsi daxildir.

Audit yoxlamasına təqdim edilmiş sənədlərin düzgünlüyünə «Azəravtoyol» ASC-nin rəhbərliyi məsuliyyət daşıyır.

***Auditorun məsuliyyəti***

Bizim vəzifəmiz apardığımız audit əsasında bu maliyyə hesabatları üzrə rəy ifadə etməkdir. Biz auditi Beynəlxalq Audit Standartlarına uyğun aparmışıq. Bu standartlar bizdən etik normalara riayət etməyi və auditin planlaşdırılması və aparılmasını maliyyə hesabatlarında əhəmiyyətli səhvlərə yol verilmədiyinə kifayət qədər əmin olacaq tərzdə həyata keçirməyi tələb edir.

Auditə maliyyə hesabatlarında göstərilən məbləğlər və açıqlamalar barədə audit sübutlarının əldə edilməsi üçün prosedurların həyata keçirilməsi daxildir. Seçilmiş prosedurlar, eləcə də firildaqçılıq və ya səhv nəticəsində yaranmasından asılı olmayaraq, maliyyə hesabatlarının əhəmiyyətli səhvlər riskinin qiymətləndirilməsi auditorun mühakiməsindən asılıdır. Bu risklər qiymətləndirilərkən auditor müəyyən şəraitdə münasib olan audit prosedurlarının işlənib hazırlanması məqsədilə müəssisənin maliyyə hesabatlarının hazırlanması və düzgün təqdim edilməsinə aid olan daxili nəzarət elementlərini nəzərə alır, lakin bu zaman müəssisənin daxili nəzarət sisteminin səmərəliliyi haqqında rəy bildirmək məqsədini güdmür. Auditə, həmçinin tətbiq edilmiş uçot prinsiplərinin və rəhbərlik tərəfindən edilmiş mühüm ehtimalların qiymətləndirilməsi, o cümlədən maliyyə hesabatlarının təqdim edilməsi üzrə qiymətləndirmənin aparılması daxildir.

Hesab edirik ki, əldə etdiyimiz audit sübutları auditor rəyinin bildirilməsi üçün yetərli və müvafiq əsası təmin edir.

***Rəy***

Bizim fikrimizcə, 31.12.2015-ci il tarixinə başa çatmış il üzrə maliyyə hesabatları «Azəravtoyol» ASC-nin maliyyə vəziyyətini, maliyyə nəticələrini və pul vəsaitlərinin hərəkətini bütün əhəmiyyətli hallarda mövcud qanunvericiliyə müvafiq olaraq düzgün əks etdirir.

Fəxri Auditor E.Əliyev

31.05.2016